# PEŞƏ TƏHSİLİNDƏ METODİKİ KOMİSSİYANIN İŞİNİN TƏŞKİLİ



**Rübabə Məmmədova,**
*Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin ixtisas fənn müəllimi,*
*İstehsalat təlimi və ixtisas modulları üzrə metodiki komissiyanın sədri*
*e-mail: mamedovar1961@gmail.com*

Hazırda ölkəmizdə peşə təhsili tamamilə yeni, həm də fərqli bir inkişaf mərhələsindədir. Xalqımız müxtəlif zaman etibarilə öz tarixi, mədəni, estetik xüsusiyyətlərinə görə seçildiyi kimi, özünün yüksək sənətkarlıq qabiliyyəti ilə də fərqlənmişdir. Bu gün respublikamızda bütün sahələrdə gedən texniki və texnoloji yeniləşmə bir çox peşələr üzrə ixtisas xarakteristikasını tamamilə təkmilləşdirmişdir. Peşə təhsilində işlədilən tədris proqramları məzmun etibarilə emalatxanalarda quraşdırılmış avadandigər dövlətlərin istehsal etdiyi texnologiyalara tamamilə uyğundur. Yəni tələbələrin təlim prosesində əldə etdikləri bacarıq və vərdişlər başqa quruluşa və istismar qaydalarına malik olan avadanlıqlarla da tətbiq edilir.

Peşə təlimi sahəsində hazırlanan ixtisaslı kadrlar cəmiyyətin sərvətidir. Bütün istehsal sahələrində keyfiyyətli məhsul istehsalı və iqtisadi səmərəlilik ixtisaslı kadrlarla bilavasitə bağlıdır. Bu gün peşə təhsili müəssisələrində aparılan tədqiqatlar bir daha onu göstərir ki, tərtib olunmuş tədris plan və proqramları texnoloji sürət tempindən geri qalmır və bu səbəbdən də məzunlar əmək bazarının tələblərinə uyğun gəlir. Burada əsas rol peşə təhsili müəssisəsində nəzəri hazırlıqla praktiki hazırlığın vəhdət halında, paralel və güclü fəaliyyət göstərməsidir. Belə olduqda metodiki xidmət təhsilverənlərin səriştəliliyinin artırılmasını, qabaqcıl pedaqoji təcrübəyə qısa müddətdə yiyələnməsini sürətləndirir, eyni zamanda yaradıcı fəaliyyətə motivasiya edir.

Müəllimlərin pedaqoji ustalığının artırılmasında ən yaxşı vasitələrdən biri **metodiki xidmətin** müxtəlif innovativ iş formalarının effektivliyindən yararlanmaqdır. Bu mənada cəmiyyət üçün layiqli vətəndaş yetişdirmək hər zaman peşə təhsili müəssisələrinin ən aktual məqsədlərindən olub. Layiqli vətəndaş dedikdə isə cəmiyyət qarşısında məsuliyyətini dərk edən, xalqın milli-mənəvi dəyərlərinə varislik edən, ölkənin iqtisadi və mədəni yüksəlişinə töhfə vermək üçün lazım olan bilik və bacarıqlara yiyələnmiş şəxsiyyət nəzərdə tutulur. Belə şəxsiyyətin hazırlanması təhsilverənlərdən böyük məsuliyyət tələb edir. Bunun üçün təhsilverənlərin tədris etdikləri fənnin məzmununu yaxşı bilməsi kifayət etmir. Onlar daim tədris prosesinin səmərəliliyini artırmaq üçün yeni yollar, üsullar, müasir dövrün tələblərinə cavab verən avadanlıqlar axtarışında olmalıdırlar. Bu istiqamətdə sistemli metodiki işin təşkil edilməsinin əsas **iki** yolu vardır.

*1. Müəllimlərin pedaqoji səriştəliliyinin artırılması.*

*2. Qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi və yayılması.*

**Metodiki komissiya** dedikdə, bir təhsil müəssisəsinin müəllimlərinin ixtisas və ya fənlər üzrə birliyi nəzərdə tutulur. Metodiki komissiyaya ən təcrübəli, nəzəri cəhətdən təlim keçmiş müəllim rəhbərlik edir. Rəhbərin vəzifələrinə metodkomissiyanın işini planlaşdırmaq, iclasların keçirilməsi, açıq dərslər və tələbələr üçün vacib tədbirlər təşkil

etmək, işlərin nəticələrini ümumiləşdirmək və onların əsasında tövsiyələr hazırlamaq və s. daxildir. Metodiki komissiyanın rəhbəri müəllimlərin dərslərində (onların razılığı ilə) iştirak etməli və onları təhlil etməli, tələbələrin nailiyyət səviyyəsini və müəllimlərin peşə səriştəsinin səviyyəsini öyrənmək üçün tədbirlər həyata keçirməlidir. Metodiki komissiyanın illik işini planlaşdırarkən pedaqoji prosesin ən vacib məsələləri seçilməlidir ki, təlim-tərbiyə işlərinin nəticələrini yaxşılaşdırmaqda müəllimlərə həqiqətən də faydalı olsun. Metodkomissiyanın əsas fəaliyyətləri ***açıq dərslər, qarşılıqlı dərsdinləmələr*** və ***onların sonrakı təhlilləridir.***

Müasir şəraitdə peşə təhsili müəssisələrində metodiki mühit ciddi mənada təkmilləşdirilməlidir. Buna çox böyük ehtiyac vardır. Çatışmazlıqları aradan qaldırmaq üçün müasir metodiki problemin həllinə çox dəqiq yanaşmaq lazımdır. Ən əsası, ilk olaraq peşə təhsili müəssisələrində metodiki xidmətin fəaliyyət istiqamətləri müəyyənləşdirilməlidir. Metodiki komissiyalar tədris müəssisəsində Metodiki Şuranın nəzarəti və fəaliyyəti ilə sıx əlaqəli surətdə fəaliyyət göstərir. Metodiki Şura öz işini müəssisənin təhsil sahəsindəki prinsiplərinə uyğun, eləcə də digər prinsipləri nəzərə alaraq təşkil etməli və dərslərin müəssisənin məqsədlərinə uyğunluğunu daimi izləməlidir.

Bu gün respublikamızda öz fəaliyyəti ilə seçilən peşə təhsili müəssisələrindən biri də uzun müddət çalışdığım **Qəbələ Dövlət Peşə Təhsil Mərkəzidir.** İxtisas fənn müəllimi olaraq İstehsalat təlimi və ixtisas modulları üzrə metodiki komissiyaya rəhbərlik edirəm. Çoxillik təcrübəmə əsaslanaraq və müasir dövrün tələblərinə uyğun olaraq, peşə təhsili müəssisələrində tədris prosesinin əsas metodikasını, praktikasını, qanunauyğunluqlarını, inkişaf istiqamətlərini müəyyən edən metodkomissiyalarla həyata keçirilməsi vacib olan bir sıra yeni innovasiyaları nəzərə çatdırmaq istərdim. Burada əsas məqsəd peşə-ixtisas təhsilinin keyfiyyətinin yüksəldilməsi, bu istiqamətdə təlim və tərbiyənin forma və metodlarının təkmilləşdirilməsi, tədris prosesinin tədris-metodiki təminatının yaxşılaşdırılmasıdır.

**Metodiki komissiyanın vəzifələri aşağıdakılardan ibarətdir:**

*– tələbələrin peşəkar kadr kimi hazırlanması üçün nəzəri və istehsalat təlimi dərslərində müasir təlim formalarından və metodlarından istifadəni təmin etmək;*

*– tədris prosesinin tədris-metodiki təminatının yaxşılaşdırılması işini təşkil etmək;*

*– yeni peşələr üzrə tədris plan və proqramlarının hazırlanması işini yüksək səviyyədə təşkil etmək;*

*– qabaqcıl təcrübəni öyrənmək və tətbiq etmək;*

*– yeni işə başlamış müəllimlərə və istehsalat təlimi ustalarına metodiki köməklik göstərmək;*

*– məktəbdə olan əsas təhsil problemlərini üzə çıxartmaq və onların aradan qaldırılması üçün tədbirlər görmək;*

*– müasir təlim texnologiyalarına yiyələnmək, tədris-planlaşdırıcı sənədləri təkmilləşdirmək və bu sənədlərə nəzarət formalarını gücləndirmək;*

*– metodiki qovluqların yaradılması və yenilənməsini daim nəzarətdə saxlamaq, metodiki guşədəki materialların yenilənməsi işlərini, modul-təliminə dair guşənin zənginləşdirilməsini təşkil etmək;*

*– müəllimlərin özünütəhsilinin inkişafını nəzarətdə saxlamaq və bu istiqamətdə onlara metodiki köməklik etmək;*

*– yeni nəsil dərsliklərdən istifadə edilməsinə dair metodiki tövsiyələr vermək;*

*– dual peşə təhsilinin təşkili üzrə metodiki tövsiyələrin hazırlanması və metodiki seminarların təşkilini diqqətdə saxlamaq;*

*– tələbələrin səriştələrinin qiymətləndirilməsinə dair metodiki seminarlar təşkil etmək;*

*– məktəbdaxili qiymətləndirmə meyarlarının öyrənilməsi və tətbiqinə nail olmaq;*

*– dərslərin qarşılıqlı dinlənilməsi, təcrübə mübadiləsi aparmaq, fəal təlim üsullarının öyrənilməsi və təlimdə tətbiqi barədə tövsiyələr vermək;*

*– istehsalat təlimi dərslərində tələbələrin əməyin təhlükəsizliyi üzrə təlimatlandırılması hesabatının aparılması vəziyyətinə nəzarət etmək;*

*– qiymətləndirmə vasitələri fondunun yaradılmasını təşkil etmək;*

*– metodiki komissiyanın işinin sosial şəbəkələrdə təbliğ edilməsinə nail olmaq;*

*– mühəndis-pedaqoji heyətinin peşə səriştələrinin artırılması vəziyyətini, modul həftələrinin təşkili və keçirilməsi məsələsini müzakirə etmək və s.*

Mərkəzdə təhsil müəssisələrində məktəbdaxili qiymətləndirmə meyarlarının öyrənilməsi və tətbiqinə nail olmaq məqsədi ilə yaradılmış qiymətləndirmə formaları toplusundan bir nümunəni təqdim edirəm.

**İnformatika fənnindən 2021-2022-ci tədris ili üçün**

**Böyük summativ qiymətləndirmə**

**1. İnformatika nəyi öyrənir?**

*A. İnformasiyanın xassələrini*
*B. İnformasiya proseslərini*
*C. Kompüterin proqram təminatını*
*D. Kompüterin iş prinsipini*

**2. İnsan tərəfindən alınan informasiyanın hansı növləri var?**

*A. Riyazi, psixoloji, bioloji, video*
*B. Mətn, ədədi, qrafik, səs*
*C. Vizual, qoxu, dad, səs, taktil*
*D. Qrafik, adi, video, audio*

**3. Aşağıdakılardan hansı ziyanverici proqram deyil?**

*A. Şəbəkə soxulcanı*
*B. Antivirus proqramları*
*C. Reklam proqramları*
*D. Troya proqramları*

**4. 128 bit neçə bayta bərabərdir?**

*A. 4 bayt*
*B. 16 bayt*
*C. 32 bayt*
*D. 28 bayt*

**5. Model nədir?**

*A. Obyektin iş prinsipini müəyyən edir.*
*B. Obyektin xarici görünüşünü müəyyən edir.*
*C. Prosesin bütün xassələrini müəyyən edir.*
*D. Obyektin, hadisənin, prosesin müəyyən xüsusiyyətlərini ifadə edir.*

**6. Verilənlər bazasının mərkəzi elementi nə adlanır?**

*A. Sahə*
*B. Qrafik*
*C. Cədvəl*
*D. Mətn*

**7. Ən sadə verilənlər bazasında neçə cədvəl olur?**

*A. 1*
*B. 5*
*C. 3*
*D. 4*

**8. Cədvəldəki yazılar adi cədvəldə nə adlanır?**

*A. Sahələr*
*B. Sütunlar*
*C. Sətirlər*
*D. İnterval*

**9. İnternet nədir?**

*A. Kompüter yığımı*
*B. Regional şəbəkə*
*C. Lokal şəbəkə*
*D. Qlobal şəbəkə*

**10. VPN nədir?**

*A. Yerli şəbəkə*
*B. Regional şəbəkə*
*C. Virtual özəl şəbəkə*
*D. Adi şəbəkə*

**11. İnternet şəbəkəsində ünsiyyət zamanı qəbul olunmuş qaydalara nə deyilir?**

*A. Protokol*
*B. Şəbəkə etikası*
*C. Alqoritm*
*D. Proqram*

**12. Sistem dedikdə nə başa düşülür?**

*A. Texniki qurğu*
*B. Avadanlıqlar*
*C. Axtarış sistemləri*
*D. Hissələrdən ibarət tam birləşmə*

**13.Yerin günəş ətrafında fırlanmasını təsvir edən animasiya nədir?**

*A. Təsvir model*
*B. Dinamik model*
*C. Maddi model*
*D. Statik model*

**14. Layihənin işlənib hazırlanma mərhələsinin ardıcıllığını göstərin.**

*1. Planlaşdırma*
*2. Bitirmə*
*3. İcraetmə*
*4. Nəzarət*
*5. Başlama*

***A. 1.2.3.4.5 B. 2.1.4.3.5***
***C. 4.5.2.3.1 D. 5.1.3.4.2***

**15. VB-da cədvəldəki "sahə" anlayışı adi cədvəldə nə adlanır?**

*A. Yazı*
*B. Şəkil*
*C. Sütun*
*D. Diaqram*

**16. Veb-səhifə fayllarının uzantısını qeyd edin.**

*A. Http*
*B. Tcp*
*C. Htm*
*D. Com*

**17. Kompüterin telefon xətti ilə internetə qoşulması üçün hansı qurğunun olması vacibdir?**

*A. Printer*
*B. Monitor*
*C. Modem*
*D. Kommutator*

**18. Elektron poçtun əsas əlaməti hansıdır?**

*A. Obyektivlik*
*B. Operativlik*
*C. Anlaşıqlıq*
*D. Tamlıq*

**19. Başqa səhifələrə istinadların olduğu mətn necə adlanır?**

*A. Hipermətn*
*B. Ms Excel sənədi*
*C. Ms Word sənədi*
*D. Adi mətn*

**20. Şəbəkədə ən azı neçə kompüter olmalıdır?**

*A. 4*
*B. 2*
*C. 1*
*D. 5*

***Test nəticələrinin qiymətləndirilməsi***

| Suallar | Dəyərləndirmə | ümumi bal | qiymət |
|---|---|---|---|
| 1 | 2 (bal) | | |
| 2 | 2 (bal) | | |
| 3 | 3 (bal) | | |
| 4 | 3 (bal) | | |
| 5 | 3 (bal) | | |
| 6 | 4 (bal) | | |
| 7 | 4 (bal | | |
| 8 | 4 (bal) | | |
| 9 | 4 (bal) | | |
| 10 | 5 (bal) | | |
| 11 | 5 (bal) | | |
| 12 | 5 (bal) | | |
| 13 | 6 (bal) | | |
| 14 | 6 (bal) | | |
| 15 | 6 (bal) | | |
| 16 | 7 (bal) | | |
| 17 | 7 (bal) | | |
| 18 | 7 (bal) | | |
| 19 | 8 (bal) | | |
| 20 | 9 (bal) | | |

**Düzgün cavablar**

| | |
|---|---|
| 1 | B |
| 2 | C |
| 3 a | B |
| 4 | B |
| 5 | D |
| 6 | C |
| 7 | A |
| 8 | C |
| 9 | D |
| 10 | C |
| 11 | A |
| 12 | D |
| 13 | B |
| 14 | D |
| 15 | C |
| 16 | C |
| 17 | B |
| 18 | B |
| 19 | B |
| 20 | B |

Metodiki iş məktəbin onurğa sütunu hesab olunur. Düşünürük ki, yuxarıda göstərilən tövsiyələr ardıcıl və mütəmadi olaraq həyata keçirilərsə, peşə təhsili müəssisələrində fəaliyyət göstərən pedaqoji kadrların fəaliyyətində, onların peşəkarlığının inkişaf etdirilib artırılmasında daha zəruri və ciddi irəliləyişlər mümkündür.